# Rəşadət salnaməsini yazan Prezidentin liderlik missiyası

***Hər dövr öz qəhrəmanını yetişdirir və onların qoyduğu izlər heç zaman tarixin yaddaşından silinmir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev məhz belə şəxsiyyətlərdəndir. Zamanın ədalətsiz mövqeyi onun əzmi qarşısında istiqamətini dəyişir, xalq rəhbərinin baxışlarında xoşbəxtlik işığını görür və gələcəyə ümidlə baxır.***

Prezident İlham Əliyev sərt çağırışlara və haqsızlıqlara baxmayaraq, milli ruhu daim dirçəldən qalib sərkərdə, siyasi strategiyasında, beynəlxalq tribunalarda, diplomatik masalarda dövlətin və xalqın maraqlarını qətiyyətlə müdafiə edən dövlət başçısıdır. Onun idarəçilik prinsipi nəticəyə hesablanmış addımlara və qələbələrin təntənəsinə əsaslanır. İlham Əliyev siyasət meydanında məharətli diplomat, hərb meydanında zəfər qazanan Ali Baş Komandandır. XXI əsrin çətinliklərini uğur fəlsəfəsinə çevirərək qaliblər tribunasında yer qazanan liderin uzaqgörənliyi sayəsində Azərbaycan Cənubi Qafqazın lider dövlətidir.

**(davamı 3-cü səhifədə)**

# Rəşadət salnaməsini yazan Prezidentin liderlik missiyası

(əvvəli 1-ci səhifədə)



2003-cü il oktyabrın 15-də İlham Əliyev xalqın istəyi və iradəsi ilə 76 faizdən çox səs toplayaraq Azərbaycan Respublikasının Prezidenti seçildi. Müstəqil dövlətçiliyin möhkəmləndirilməsi və ərazi bütövlüyünün təmin edilməsi kimi tarixi missiyanın məsuliyyətini çiyinlərinə götürən dövlət başçısı ilk gündən mütərəqqi strategiya həyata keçirməyə başladı. Dövlətin müdafiə qabiliyyəti, ordu quruculuğu sistemli şəkildə gücləndirildi, diplomatik meydanlarda Azərbaycanın haqq səsi ucaldı. Azərbaycanın güclü və müasir orduya sahib olması təhlükəsizlik məsələsi ilə yanaşı, müstəqilliyin möhkəmləndirilməsi və gələcək Zəfərin təməli oldu. Hərbi-siyasi sahədə ardıcıl və məqsədyönlü islahatlara start verildi. Müdafiə sənayesi yaradıldı, orduya ayrılan büdcə, müasir silah və texnikalarla təminat artırıldı. Dövlət başçısının "Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyinin yaradılması" haqqında Sərəncamı ilə 2005-ci ildə Azərbaycan Müdafiə Sənayesi Nazirliyi yaradıldı. Bu, hərbi islahatların mühüm mərhələlərindən biri oldu. 2011-ci ildə Azərbaycanın müstəqilliyinin 20-ci və Silahlı Qüvvələrin 93-cü ildönümləri münasibətilə Bakının Azadlıq meydanında təntənəli hərbi parad keçirildi. Hərbi paradda Silahlı Qüvvələrin bütün qoşun növlərinin, hərbi birlik və birləşmələrin, hərbi tədris müəssisələrinin, həmçinin qanunvericilikdə nəzərdə tutulan başqa silahlı birləşmələrin 6 min nəfərlik şəxsi heyəti, 400-dək hərbi texnika və silah sistemləri, o cümlədən 50-yə yaxın modernləşdirilmiş hərbi döyüş texnikası, Azərbaycanda istehsal olunan və modernləşdirilən 60-dək silah, döyüş vertolyotları, təyyarələri, gəmiləri və qayıqları iştirak edirdi. Hərbi paradda iştirak edən dövlət başçısı demişdir: "Azərbaycanda Müdafiə Sənayesi Nazirliyinin xətti ilə hərbi təyinatlı məhsulların buraxılması prosesi uğurla gedir və biz bu sahədə də böyük nailiyyətlərə çata bilmişik".

Azərbaycan artıq yalnız idxala deyil, yerli istehsala əsaslanan milli hərbi sənaye kompleksinə sahib ölkəyə çevrildi. Silah, sursat, hərbi geyim, zirehli texnikalar və s. hər biri ölkə brendi ilə istehsal olunmağa başladı. Bu addım həm iqtisadi səmərəliliyi inkişaf etdirdi, həm də hərbi-siyasi müstəqilliyi möhkəmləndirdi. Azərbaycanda 20-dən çox hərbi zavod quruldu və 1000-dən çox adda hərbi məhsul istehsal edildi. Əsgər və zabit heyətinin hazırlığı, peşəkarlığın artırılması, xarici təlim proqramlarına cəlb olunma, nizam-intizam və milli vətənpərvərlik ruhunun aşılanması prioritet məsələlərdən idi. Ali Hərbi Məktəblərdə müasir tədris proqramları tətbiq olundu, NATO standartlarına uyğun peşəkar kadrlar hazırlanmağa başlandı. 2004-cü ildə Azərbaycan NATO-nun Fərdi Tərəfdaşlıq Fəaliyyət Planına qoşuldu. NATO standartlarına uyğun hərbi təhsil sisteminin tətbiqi məqsədilə Ali Hərbi Məktəb və Silahlı Qüvvələrin Tədris və Təlim Mərkəzində islahatlar həyata keçirildi. Həmçinin Türkiyə Silahlı Qüvvələri ilə birgə təlimlər çərçivəsində Azərbaycan Ordusu yüksək təcrübə qazandı. Ən müasir tanklar (T-90), raket sistemləri (Smerç, Polonez), artilleriya qurğuları, zenit-raket kompleksləri, optik-elektron sistemlər, rabitə vasitələri, gecə görmə cihazları və digər texniki vasitələr ordunun arsenalına daxil edildi. Pilotsuz uçuş aparatı (PUA) sistemlərinin alınması xüsusilə İsraillə əməkdaşlıq çərçivəsində həyata keçirilən layihələr ordunun çevik hücum və müşahidə imkanlarını artırdı. Müdafiə Sənayesi Nazirliyinin xətti ilə bəzi PUA-lar yerli müəssisələrdə istehsal edilməyə başladı, bu, Azərbaycanın müstəqil hərbi-sənaye sektorunun inkişafında tarixi dönüş oldu. Prezident İlham Əliyevin siyasi iradəsi, prinsipiallığı nəticəsində 2016-cı il aprel ayında cəbhə xəttində baş verən hadisələr Azərbaycanın müasir tarixinə qızıl hərflərlə yazıldı. İllərdir davam edən status-kvo rejimi sarsıldı, "qondarma sülh" maskası cırıldı və Azərbaycan Ordusunun bölmələri işğalçıların illərdir bütün dünyaya yaymağa çalışdığı mifi darmadağın etdilər. Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi və qətiyyəti nəticəsində orduya göstərilən etimad, hərbi islahatlar, döyüş hazırlığı və texniki üstünlük Aprel döyüşlərini qəhrəmanlıq salnaməsinə çevirdi. Tərtər, Ağdərə, Füzuli və Cəbrayıl istiqamətlərində aparılan uğurlu hərbi əməliyyatlarla strateji əhəmiyyətli yüksəkliklər, o cümlədən Lələtəpə və Talış kəndi ətrafındakı mövqelər düşmən tapdağından azad edildi. Prezident İlham Əliyev bu döyüşlərdən sonra dəfələrlə vurğuladı ki, Azərbaycanın ərazi bütövlüyü hərbi və siyasi yollarla bərpa ediləcək. Aprel zəfəri bu yolun başlanğıcı oldu - Azərbaycan xalqı öz gücünə, ordusuna və liderinə arxalanaraq gələcəyə daha böyük inamla baxdı.











2018-ci il aprelin 11-də keçirilmiş növbədənkənar prezident seçkilərində 86,02 faiz səs çoxluğu ilə qalib gələn İlham Əliyev növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti seçildi. İlham Əliyevin yenidən prezident seçilməsi ilə ölkədə xalq-iqtidar birliyi, siyasi sabitlik, inkişaf dinamikası və güclü dövlətçilik ənənəsi davam etdi. Bu qələbə Azərbaycanın gələcəyə inamla addımladığını, milli maraqların qorunmasında dəyişməz mövqe sərgilədiyini bütün dünyaya bəyan etdi. Bütün bunlar 2003-2018-ci illər ərzində həyata keçirilən genişmiqyaslı islahatların, hərbi strategiyanın, iqtisadi inkişaf proqramlarının, diplomatik uğurların xalq tərəfindən yüksək qiymətləndirilməsinin məntiqi nəticəsi idi. Artıq Azərbaycan yeni mərhələyə, postmünaqişə dövrünə və regional liderliyə iddialı olan mərhələyə qədəm qoymağa hazır idi. 2018-ci il aprelin 11-də keçirilən seçkilərdə ona göstərilən böyük etimada görə xalqımıza müraciət edərək minnətdarlığını bildirən dövlət başçısı çıxışında gələcəklə bağlı proqnoz verdi: "Gün gələcək və bu gün hələ də işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağı qaldırılacaq, bu torpaqlarda prezident seçkiləri keçiriləcək, Azərbaycan Prezidenti seçiləcəkdir".

Uzaqgörən liderin dediyi sözlər reallığa, mübarizənin təntənəli zəfərinə çevrildi. 2020-ci il İkinci Qarabağ müharibəsində Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun bölmələri 44 gün ərzində düşmənə unudulmaz dərs verdi və qlobal miqyasda bir faktı təsdiqlədi: "Qarabağ Azərbaycandır!". Bu şüar bütün dünyaya səs saldı. Azərbaycan dövləti təzyiqlərə baxmayaraq, ərazi bütövlüyünü bərpa edərək tam qələbə qazandı. Prezident İlham Əliyev həm siyasətdə, həm hərb meydanında, həm də milli kimliyimizin qorunmasında böyük rol oynayaraq sübut etdi ki, onun rəhbərliyində müstəqil dövlət, dəmir iradə və parlaq zəfər var.

**Fidan ƏLİYEVA,**
**"Respublika".**